http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №05 (1537) 15 mart 2012 - ci il Qiyməti 20 qəpik

# Astara Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmir və yenidənqurmadan sonra açılışı olmuşdur

**Martın 13-də Azərbaycan Prezidenti İlham Əliyev Astara rayon mərkəzi xəstəxanasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etmişdir.**

Dövlətimizin başçısı xəstəxananın təmirdən əvvəlki və sonrakı görüntülərini əks etdirən stendlərə baxdı.

Məlumat verildi ki, 1983-cü ildə tikilən üçmərtəbəli xəstəxana binası sonralar yararsız hala düşmüşdü. Ayrılan dövlət vəsaiti hesabına 90 çarpayılıq xəstəxana əsaslı şəkildə təmir olunaraq yenidən qurulmuş və ən müasir tibbi avadanlıqla təchiz edilmişdir.

Qeyd edildi ki, xəstəxananın birinci mərtəbəsində qəbul, mama-ginekologiya şöbələri, əməliyyat bloku, yeni doğulan uşaqların intensiv terapiya palatası, ultrasəs müayinə kabineti, 10 palata, mətbəx, bufet və xidməti otaqlar vardır. İkinci mərtəbədə cərrahiyyə, reanimasiya və intensiv terapiya şöbələri, əməliyyat bloku, iki əməliyyat zalı, iki intensiv terapiya palatası, 11 palata, mətbəx, bufet və xidməti otaqlar yerləşir. Üçüncü mərtəbədə isə terapiya şöbəsi, 13 palata, mətbəx, bufet və xidməti otaqlar fəaliyyət göstərir. Xəstəxananın ərazisi abadlaşdırılmış, 1,5 hektar sahədə müasir tələblərə cavab verən yeni istirahət parkı salınmış, yaşıllıq zolağı genişləndirilmişdir. Parkda yay istirahət yerləri quraşdırılmışdı.

* * *

Sonda xatirə şəkli çəkdirildi.



## Bakıda «Analığın qorunması minilliyin əsas məqsədidir» adlı beynəlxalq konfrans keçirilmişdir

**Martın 12-də Bakıda «Analığın qorunması minilliyin əsas məqsədidir» adlı 1-ci konfrans keçirilmişdir.**

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuşdur.

Sonra Azərbaycan Tibb Universitetində keçirilən konfransı «Lider qadınlar» İctimai Birliyinin sədri Məlahət İbrahimqızı açaraq tədbir iştirakçılarını, millət vəkillərini, Türkiyədən gələn qonaqları və media nümayəndələrini salamladı. Yeni doğulan uşaqların sağlamlığının ananın səhhəti ilə sıx əlaqəli olduğunu deyən millət vəkili qeyd etdi ki, başlıca məqsəd məsələni tibbi nöqteyi-nəzərdən müzakirə etmək yox, ictiamiyyətin diqqətini bu vacib problemə yönəltməkdir.






ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov görülən tədbirlər nəticəsində hazırda ölkədə demoqrafik təhlükənin olmadığını bildirərək vurğuladı ki, dünyada əhalinin ilbəil azalması prosesi gedir. Elə ölkələr var ki, əhalinin sayı ildə bir milyon azalır. Şükürlər olsun ki, qardaş Türkiyədə və Azərbaycanda belə problem yaşanmır. Ancaq təkcə kəmiyyətə deyil, keyfiyyətə də ciddi fikir verilməlidir. Gənc nəslin, yeni dünyaya gəlmiş insanlarımızın daha sağlam, uzun ömürlü olması üçün mühüm addımlar atılmalıdır. Bu baxımdan müzakirə olunan məsələ xüsusi əhəmiyyət kəsb edir.

Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli isə parlamentdə müzakirəsi davam edən «Reproduktiv sağlamlıq və ailə planlaşdırılması haqqında» qanundan danışmışdır. Bildirmişdir ki, bu qanun reproduktiv sağlamlıq sahəsində mövcud problemlərin aradan qaldırılmasına yardım edəcəkdir.

Türkiyə-Azərbaycan dostluq qrupunun sədri Necdet Ünüvar hər il dünyada doğuş zamanı ölən anaların sayının müharibələrdə ölən insanların sayından çox olduğunu konfrans iştirakçılarının diqqətinə çatdırmışdır. Demişdir ki, Dünya Səhiyyə Təşkilatı, BMT və bir çox beynəlxalq təşkilatların səhiyyə problemləri sırasında ana sağlamlığı əsas məsələlərdən biridir.

Tədbirdə Yer üzü Beynəlxalq Doktorlar Təşkilatının könüllüsü, Türkiyə Qadın Sağlıqçılar Təşkilatı İdarə Heyətinin üzvü Sare Davudoğlunun «Reproduktiv sağlamlıq və bioetika» mövzusunda məruzəsi dinlənilmişdir. Məruzəçi bu sahədə Türkiyə təcrübəsindən danışmışdır.

Mövzu ətrafında müzakirələrlə davam edən konfrans martın 13-də başa çatmışdır.

**Arif MƏMMƏDLİ**

*Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi universitetin professor-müəllim heyətini, bütün əməkdaşlarını və tələbələrini*



***Novruz Bayramı***

*münasibətilə səmimi qəlbdən təbrik edir, onların hər birinə möhkəm cansağlığı, firavan həyat, bol-bol sevinc arzulayırlar!*

## Arterial hipertenziyanın müalicəsi ilə bağlı elmi-praktiki konfrans keçirilmişdir

◆ **Azərbaycan Kardiologiya Cəmiyyəti (AKC) martın 14-də "Arterial hipertenziyanın medikamentoz və invaziv müalicəsi" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.**

AKC-dən AzərTAc-a bildirmişlər ki, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda təşkil olunacaq konfransda mövzu ilə bağlı məruzələr dinlənilərək müzakirələr aparılmışdır.

## Bakıda III Azərbaycan-Almaniya cərrahiyyə günləri çərçivəsində konfrans keçirilmişdir

**◆ Azərbaycan-Almaniya Tibbi Əməkdaşlıq Cəmiyyəti (AATƏC), Milli Onkologiya Mərkəzi (MOM), «İrəli» İctimai Birliyi və Almaniyanın Siegen Marien Krankenhaus Klinikasının birgə əməkdaşlığı ilə Bakıda III Azərbaycan-Almaniya cərrahiyyə günləri keçirilib.**

AzərTAc xəbər verir ki, bununla əlaqədar martın 8-də «Monolit Plaza» hotelində tibbi təhsil alan tələbələr və gənc həkimlər üçün konfrans təşkil olunmuşdur.

Tədbirdə konfransın əhəmiyyətindən danışan AATƏC-in sədri, professor Qurbanxan Müslümov bildirmişdir ki, belə elmi tədbirlər səhiyyənin inkişafında əsaslı rol oynayır. Diqqətə çatdırılmışdır ki, konfransda Almaniyanın üç nüfuzlu klinikasının rəhbərləri iştirak edirlər. Almaniyanın aparıcı klinikaları ilə 2003-cü ildən başlanan əməkdaşlıq bu gün də uğurla davam etdirilir.

Almaniyanın Siegen Marien Krankenhaus Klinikasının professoru Frank Villeke vurğulamışdır ki, azərbaycanlı tələbələr və gənc həkimlər məlumat almağa böyük maraq göstərirlər. Azərbaycan gəncləri bizdən öyrəndikləri kimi, biz də onlardan öyrənirik.

Çıxışlardan sonra AATƏC-in, MOM-un və «İrəli» İB-nin birgə həyata keçirdikləri «Elmi-tibbi tədqiqatların müasir əsasları və istiqamətləri» layihəsinin yekun nəticələri təqdim olunmuşdur.

Bildirilmişdir ki, layihənin icrasına bir il əvvəl MOM-un direktoru akademik Cəmil Əliyevin elmi rəhbərliyi ilə başlanılmışdır. Layihə çərçivəsində indiyədək ölkəmizdə və dünyada əldə olunan tibbi nailiyyətlər, ədəbiyyatdan istifadə etmək, dis-



kussiya aparmaq və s. məsələlərlə bağlı 60 iştirakçıya treninqlər keçirilmişdir.

Qeyd olunmuşdur ki, layihəyə təqdim olunmuş tədqiqat işlərinin nəticələri münsiflər heyəti tərəfindən qiymətləndiriləcək və qalib müəyyən ediləcəkdir. Qalib iştirakçı Almaniyanın aparıcı klinikalarının birində tədqiqat laboratoriyası ilə tanış olmaq , elmi işini davam etdirmək imkanı qazanacaqdır.

Almaniyalı professorlar tərəfindən laparoskopik cərrahiyyə və anesteziologiya üzrə təlimlərlə davam edən konfrans martın 9-da başa çatmışdır.

**MƏNSUR**

## Siz həmişə ehtiyacımız olan pediatrlardansınız

**◆ Universiteimizin əməkdaşı Ələkbər Həsənov 2009-çü ildə Pediatrların IV Avropa kongresində Uşaqlarda miokard infarktı, restriktiv kardiomiopatiya və Uşaqlqrda xronik ürək çatişmazlığı mövzusunda etdiyi çıxışlar Almaniya, İtalya və Böyük Britaniyadan olan həmkarlarının böyük marağına səbəb olmuş və həmin materiallarin daha geniş şəkildə öz ölkələrində nəşr olunmasında maraqlı olduqlarını bildirmişlər. Maraqlıdir ki, həmyerlimizin bu elmi işlərinin nəticələri İngiltərənin Oksford Universitetinin nəzərindən kənarda qalmamışdir. Belə ki, Ə.Həsənovun elmi və praktiki fəaliyyətinə dair ətrafli məlumatlar bu universitet tərəfindən nəşr olunan «XXI əsrin görkəmli intellektuallarının bioqrafiyası» kitabinda öz əksini tapmışdır.**




Məlumat üçün bildirək ki, Həsənov Ələkbər Qəzənfər oğlu 1961-ci ildə Tovuz rayonunun Qovlar qəsəbəsində anadan olmuşdur. 1978-ci ildə Bakl şəhərində 5 saylı kimya-biologiya təmayüllü internat məktəbini bitirmiş, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsinə daxil olmuşdur. 1984-cü ildə həmin institutu pediatr ixtisası üzrə başa vuraraq 6 saylı kliniki xəstəxanada internatura keçmişdir. 1985-1989-cu illərdə Siyəzən səhər Birləşmiş Uşaq Xəstəxanasında həkim-pediatr işləmişdir.

1989-1992-ci illərdə Azərbaycan Tibb Universitetinin uşaq xəstəlikləri kafedrasının aspirantı olmuş, 1992-ci ildən indiyə qədər həmin kafedranın əməkdaşıdır.

Ə.Həsənov 1993-cü ildə "Toksikozlar zamanı erkən yaşlı uşaqlarda qanın kallikreinkinin sisteminin dəyişilməsi və onların korreksiyası" mövzusunda tibb elmləri üzrə namizədlik disssertasiyası müdafiə etmişdir. 2002-2005-ci illərdə müqavilə əsasında Səudiyyə Ərəbistanı Krallığında Prins Sultan xəstəxanasında pediatr işləmişdir. Müqavilə başa çatdıqdan sonra Ə.Həsənova verilmiş xasiyyətnamədən: "Sizinlə ayrilmağımıza çox təssüflənirik. Bu nə qədər kədərli olsa da, təkrar qayıdışınıza o qədər şad olardıq, inşallah. Siz həmişə bizim ehtiyacımiz olan pediatrlardansınız."

1994-2002-ci illərdə BMT-nin Uşaq fondunda məsləhətçi işləmiş bir neçə proqramın müəllifi olmuşdur.

Həsənov Ələkbər Qəzənfər oğlu 2006 - 2009-cu illərdə Rusiyada Tibb Elmləri Akademiyasının Uşaq Sağlamlığı Elmi Mərkəzinin (Pediatriya İnstitutunda) doktorantı olmuş və 2010-cu ildə Moskva şəhərində "Kardiomiopatiyalar və anadangəlmə ürək qüsurları olan uşaqlarda matriks metalloprotenazaları və apoptozun xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Hal-hazırda Ə.Həsənov Azərbaycan Tibb Universitetinin Tədris-terapevtik Klinikasının uşaq reanimasiyası bölməsinə rəhbərlik edir. Azərbaycan, ingilis, ərəb və rus dillərini mükəmməl bilir.

**A.KAMRANOĞLU**

## Müəllimimin ruhu qarşısında baş əyirəm

**◆ Bu günlərdə Azərbaycan səhiyyəsi, tibb elmimiz tanınmış cərrah, əməkdar elm xadimi, əməkdar həkim, "Şöhrət" ordenli, Prezident taqaüdçüsü Bəybala Xutkar oğlu Abasovu itirdi. Ömrünün 89-cu ilində dünyasını dəyişən əvəzsiz insan dünyamızla vidalaşdı. Onun vəfatı xəbərini iş yerimdə-Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında eşitdim. Düzü bu acı xəbərə inanmağım gəlmədi. Axı bir müddət əvvəl həyat yoldaşım, jurnalist Müşfiq Cabiroğlu onunla telefon əlaqəsi saxlamışdı. Ondan "professor necəsiniz" soruşmuşdu. O da "yaxşıyam" deyə cavab vermişdi.**



Bilirdim ki, Bəybala müəllim həyat yoldaşı Şərqiyyə xanımın vəfatından sonra dərindən sarsilmışdı. Mən onu sonuncu dəfə elə Şərqiyyə xanımın yas mərasimində gördüm. Həmişə olduğu kimi onunla hal-əhval tutdum. Ona başsağlığı verdim. Dərdinə şərik çıxdım. Onun gözlərindəki kədəri, niskili hiss etdim. Minlərlə insana həyat bəxş edən həkim, ömür-gün dostunun ölümü qarşısında carəsiz qalmışdı.

Mən professor Bəybala Abasovun adını uşaqlıq illərindən eşitmişdim. 1986-cı ildə atam, xalq artisti Əliabbas Qədirov xəstələnmişdi. Xəstəliyi çox irəliləmişdi, vəziyyəti ağır idi. Ölümlə-olum arasında qalmışdı. Atamı onun işlədiyi Təcili Tibbi Yardım Xəstəxanasına apardıq. Bəybala həkim onu təcili müayinə etdi. Atamın öd kisəsində ciddi problem olduğunu dedi. Təcili cərrahi əməliyyata göstəriş olduğunu bildirdi. Mən onda ilk dəfə adını qiyabi şəkildə eşitdiyim insanı tanıdım. O, atamı yenidən dünyaya qaytardı. Həmin hadisədən sonra evimizdə uzun illər professorun atama etdiyi hörmət, yaxşılıq danışıldı, heç vaxt unudulmadı. Mən həmin illərdə orta məktəbdə oxuyurdum. O illərdə hərdən şeir də yazdığıdım olurdu. Mən bütün yaşananlardan sonra həmin həkimə şeir həsr etdim:

*Həkim, adın necə uca səslənir,*
*Çünki, sən bu adı uca tutmusan.*
*Qızıl əllərinlə neçə insana,*
*Şəfa bəxş etmisən, ömür vermisən!*

*Hər xəstə yolunda yuxusuz gecə,*
*Nə qədər ürəyə əlac olmusan.*
*Ümüdsiz dərdlərin tapıb carəsin,*
*Hipokrat andına sadiq qalmısan.*

*Qəlbin işıqlıdır bir çıraq kimi,*
*Kədərə,qüssəyə bağlanmayasan,*
*Mənim arzum budur bir xəstə kimi,*
*Həkimlər önündə dayanmayasan.*

O vaxt mənim qəlbimdə Bəybala Abasov kimi həkim olmaq arzusu oyandı. Əziz oxucu yəqin ki,bunun səbəbkarının kim olduğunu artıq bilirsiniz. Orta məktəbin yuxarı siniflərində oxuyarkən qəra gəldim ki,cərrah olum. Mən bu istəyimi valideynlərimə bildirdim. Onda atam mənə məsləhət gördü ki, bir müddət Bəybala Abasovun işlədiyi xəstəxanada çalışım. Bu arzu ilə həmin xəstəxananın cərrahiyyə şöbəsində işə başladım. İlk iş günündəcə Bəybala Abasov məni kollektiv ilə tanış etdi. İlk sözü də belə oldu: *"Ona mənim xalatımı verin, mən bıçağımı ona verəcəyəm".*

Orta məktəbi fərqlənmə ilə bitirib, sənədlərimi 1990-cı ildə Azərbaycan Tibb İnstitutuna verdim və tələbə adını qazandım. Lakin, ixtisas seçmək məqamı çatanda çox düşündüm və cərrah olmaq fikrindən daşındım. Bilmirəm Bəybala Abasov ola bilməcəyimdən ehtiyat elədim, yoxsa onun bıçağını əlindən almaq istəmədim. Tələbə ikən onunla tez-tez görüşürdüm. Ondan müəyyən məsləhətlər alırdım. Bizim bu illər ərzində professorun ailəsi ilə münasibətlərimiz daha da istiləşdi. Sağlıqla bağlı hər hansı bir problemimiz yaranırdısa düşünmədən həkimlər ailəsinə müraciət edirdik. Heç yadımdan çıxmaz, tələbə idim. Qızım xəstələnmişdi. Mən onda Şərqiyyə xanıma müraciət etdim. O, tez bir zamanda bizə gəldi. Qızımı evdə müayinə edib, müalicə yazdı. Tezliklə uşaq sağaldı.

Bütün bu duyğularla, düşüncələrlə Bəybala müəllimin yas mərasiminə gəldim. Qəlbimdən gizli sızıltılar keçdi. Bir-birinə böyük sevgi, istəklə bağlı, gözəl ailə sahibi olan, yanaşı uyuyan bu iki insanın, yoxluğu mənim qəlbimdə çox dərin iz buraxmışdı. Yerimdə donub qalmışdım. Onun şəkilinə baxdım, daxili iztirablar keçirdim. İnana bilmədim. Bu gün də inanmıram. Yüzlərlə insana şəfa bəxş edən həkimin ölümü ilə barışmadığım, İlk müəllimim Bəybala Abasovun müqəddəs ruhu qarşısında baş əyirəm. Günlər, aylar, illər ötəcək Bəybala müəllim kimi şəxsiyyətlər səhiyyə, təhsil, elm dünyasında, bütövlükdə Azərbaycan xalqının qəlbində yaşayacaqdır.

**Gültəkin ƏLİABBASQIZI,**
*Uşaq xəstəlikləri kafedrasının assistenti*

## Son 20 ildə vərəmdən ölüm hallarının sayı 40 faizədək azalmışdır

**◆ Bakıda Dünya Səhiyyə Təşkilatının (DST), ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) və Vərəm Əleyhinə Milli Proqramın birgə təşkilatçılığı ilə 24 Mart - Beynəlxalq Vərəmlə Mübarizə Gününə həsr olunmuş tədbir keçirilmişdir.**

AzərTAc xəbər verir ki, tədbirdə çıxış edən DST-nin Azərbaycandakı nümayəndəliyinin yoluxucu xəstəliklər üzrə mütəxəssisi Cəvahir Süleymanova son 20 ildə vərəmdən ölüm hallarının 40 faizədək azaldığını bildirmişdir.

DST-nin 2015-ci ilədək dünyada vərəmdən ölüm hadisələrinin sayını iki dəfə azaltmağa çalışdığını vurğulayan C.Süleymanova demişdir ki, hazırda bu xəstəliyə qarşı 10-dək yeni vaksin sınaqdan keçirilir.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru Elcan Məmmədbəyov Azərbaycanda vərəm xəstələrinin müalicəsinə nəzarət sisteminin gücləndiyini və müalicə nəticələri qiymətləndirilməyən xəstələrin sayının azaldığını bildirmişdir.

Tədbirdə, həmçinin diqqətə çatdırılmışdır ki, vərəmlə mübarizədə və bu xəstəliyin profilaktikasında geniş maarifləndirmə tədbirlərinin xüsusi əhəmiyyəti vardır.

# KAFEDRANIN SEVİMLİSİ

◆ **"Tibbi biologiya və genetika" kafedrasının dosenti Kərimov Vaqif Məmmədkərim oğlunun anadan olmasının 60, Tibb Universitetində əmək fəaliyyətinin isə 42 ili tamam olmuşdur.**



O, 1952-ci il martın 14-də Zərdab rayonunun Məlikli kəndində zəhmətkeş ailəsində anadan olmuşdur. 1969-cu ildə Sabir adına orta məktəbi bitirərək elə həmin il sənədlərini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakultəsinə vermiş, lakin yüksək müsabiqədən keçə bilməmişdir.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə qəbul olmuşdur. Axşam şöbəsində sentyabr ayından təhsil almağa başlayan tələbə Vaqif Kərimov biologiya fakültənin o zamankı dekanı - professor Qara Mustafayevin məsləhəti ilə ADTİ-nin biologiya kafedrasında boş qalmış preparator vəzifəsinə işə düzəlir.

1970 ildən öz taleyini Azərbaycan Tibb İnstitutu ilə bağlayan Vaqif Kərimov 1973-1976-cı illər Hərbi Dəniz Donanmasında 3 il qulluq etdikdən sonra öz doğma kollektivinə qayıtmış və həm də ADU-da təhsilini davam etdirmişdir. 1979-cu ildə ADU-nun (indi ki Bakı Dövlət Universitetinin) biologiya fakültəsini bitirmişdir. 1970-ci ildən bu günə kimi çalışdığı kafedrada preparator, laborant, baş laborant, assistent, baş müəllim və dosent vəzifələrində işləmişdir. Pillə-pillə qalxdığı bu yolda ona tapşırılan və etibar edilən bu vəzifələri layiqincə yerinə yetirmişdir. Eləcə də, kafedranın ictimai, mədəni-kütləvi işlərində də fəal olmuşdur. Belə ki, kafedranın qrup həmkarlar təşkilatının sədri işləmişdir. O, uzun müddətdir ki, kafedranın tədris hissə müdiri vəzifəsində çalışır.

1980-ci ildən biologiyanın bir çox sahələrinə, xüsusi ilə teriologiyaya aid məqalə və tezislərlə elmi konfranslarda çıxış etmişdir. Kafedranın 5 illik elmi-tədqiqat mövzusuna aid işlər aparmışdır. 1999-cu ildə "Samur-Dəvəçi ovalığı meşələrində yayılmış ağacçürüdən qov göbələklərinin xarakteristikası" mövzusunda təsdiq olunmuş dissertasiya işini müvəffəqiyyətlə 2004-cü ildə müdafiə etmiş və biologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

V.Kərimov 25-dən artıq elmi məqalənin, tədris-metodiki vəsaitinin və tədris proqramının müəllifidir. O, 2011-ci ildə çapdan çıxmış, Stomatologiya fakültəsinin tələbələri üçün "Tibbi biologiya və genetika"-nın müəlliflərindən biridir. 2011-ci ildə dosent Kərimov "Samur-Dəvəçi ovalığı meşələrində yayılmış ağacçürüdən bazidili göbələklərinin eko-bioloji xüsusiyyətləri"nə həsr olunmuş monoqrafiya yazmışdır. Bu monoqrafiya ATU-nın istirahət güşəsi sayılan "Təbib" istirahət mərkəzini də əhatə etdiyi üçün Xudat-Yalama və Nabran kurort meşələrindən bəhs edir. Kitabda Samur-Dəvəçi ovalığı meşələrində yayılmış ağacçürüdən bazidili göbələklərin növ tərkibi, taksonomik strukturu, sıxlığı, rastgəlmə faizi və digər eko-bioloji xüsusiyyətləri verilmişdir.

42 il işlədiyi kollektivdə böyük-kiçik yerini bilən Vaqif müəllimə əməkdaşların da xüsusi hörməti var. O, həm də şərəfli ailə başçısıdır - iki qız atasıdır. Ömür yoldaşı əczaçıdır. Böyük qızı Zeynəb ATU-nu bitirdikdən sonra təhsilini Səhiyyə Nazirliyinin göndərişi ilə Almaniyada davam etdirmiş və hazırda 26 saylı Bakı şəhər Birləşmiş Xəstəxanasında həkim-mama-ginekoloq işləyir. Kiçik qızı Səbinə ADU-nin ingilis dili üzrə sinxron tərcümə fakültəsinin bakalavr və maqistr pillələsini bitirmiş və AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun böyük elmi işçisidir.

60 yaşlı Vaqif müəllimi doğma kollektivi təbrik edir, ona can sağlığı, tədris və pedaqoji fəaliyyətində müvəffəqiyyətlər arzulayırlar. Onun doğmaları və yaxınları isə ona baba olmağı və ömrünün qalan illərini firavan və sağlam yaşamağı arzulayırlar.

**"Tibbi biologiya və genetika" kafedrasının əməkdaşları**

# 70-ci BAHARIN MÜBARƏK!

◆ **Məmmədova Rəqibə Nağı qızı 22 fevral 1942-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda müəllim ailəsində anadan olmuşdur. 1959-cu ildə həmin rayonun M.Sidqi adına 1 saylı orta məktəbini əla qiymətlərdə bitirmişdir.**



1959-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş, 1965-ci ildə əla qiymətlərlə həmin institutu bitirmişdir. 1965-ci ildən ATU-nun uşaq yoluxucu xəstəlikləri kafedrasında baş laborant vəzifəsində çalışmışdır.

1990-ci ildən indiyə kimi uşaq yoluxucu xəstəlikləri kafedrasının assistentidir.

R.Məmmədova kafedrada çalışdığı 47 il ərzində praktiki dərslər aparmış və müalicə işləri ilə məşğul olmuşdur. Özünü bacarıqlı həkim, qayğıkeş müəllim və səriştəli mütəxəssis kimi göstərərək kafedranın əməkdaşları və tələbələr arasında çox böyük hörmət qazanmışdır.

Rəqibə xanım ona verilən tapşırıqlara dəqiq və vaxtında əməl edir. O, çox məsuliyyətli bir insandır.

30 il müddətində kafedranın həmkarlar qrupuna rəhbərlik etmişdir.

Məmmədova Rəqibə xanım mehriban, səmimi, qabiliyyətli, istedadlı, gözəl insan və ana, yaxşı nənədir.

Həyat yoldaşı professor Məmmədov Zəkəriyyə Məhərrəm oğlu Azərbaycan MEA-nın Zoologiya İnstitutunda direktor muavini vəzifəsində çalışır. 3 qızı, 6 nəvəsi var.

Rəqibə xanımı uşaq yoluxucu xəstəlikləri kafedrasının əməkdaşları, 2 saylı Ə.Qarayev adına uşaq kliniki xəstəxanasının kollektivi, dostları və yaxın rəfiqələri adından yubiley münasibətilə səmimi qəlbdən təbrik edir, ona cansağlığı, səadət, xoşbəxtlik, uzun ömür arzulayırıq.

**N.HÜSEYNOVA,**
*Uşaq yoluxucu xəstəlikləri kafedrasının müdiri, t.e.d, professor*

# ŞAHİN HÜSEYN OĞLU HÜSEYNOV

◆ **Azərbaycan Tibb Universitetinə ağır itki üz vermişdir. Normal fiziologiya kafedrasının professoru Şahin Hüseyn oğlu Hüseynov 2012-ci il mart ayının 10-da 58 yaşında qəflətən vəfat etmişdir.**



Şahin Hüseynov 1954-cü ildə Qazax rayonunun Aşağı Əksipara kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1971-ci ildə Bakı şəhərində 211 saylı orta məktəbi bitirib, 1972-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsinə daxil olmuş və 1978-ci ildə İnstitutu fərqlənmə diplomu ilə bitirmişdir. 1979-1983-cü illərdə akademik A.Qarayev adına Fiziologiya İnstitutunun aspiranturasında təhsil almış və 1983-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun İxtisaslaşmış Elmi Şurasında namizədlik dissertasiya işi müdafiə etmişdir. 1984-cü ildə əldə etdiyi elmi nailiyyətlərə görə o, Azərbaycan Respublikası Lenin Komsomolu mükafatı laureatı adına layiq görülmüşdür. Ş.Hüseynov 1983-87-ci illərdə Azərbaycan EA A.Qarayev adına Fiziologiya İnstitutunda işləmişdir. 1987-ci ildə o, müsabiqə yolu ilə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Normal fiziologiya kafedrasının assistenti vəzifəsinə seçilmişdir. 1990-cı ildə Ş.Hüseynov Leninqrad Hərbi Tibb Akademiyasında «Normal fiziologiya» və «Patoloci fiziologiya» ixtisasları üzrə doktorluq dissertasiyası müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsi almışdır. Ş.Hüseynov 1991-ci ildə müsabiqə yolu ilə Normal fiziologiya kafedrasının professoru vəzifəsinə seçilmiş və ömrünün sonuna kimi həmin vəzifədə işləmişdir.

1996-cı ildə Ş.Hüseynov Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, 1999-cu ildə «Dünyada kim-kimdir» kitabına daxil olmuşdur.

Professor Ş.Hüseynov elmi kadrların hazırlanmasında yaxından iştirak etmiş, onun rəhbərliyi altında 10 namizədlik dissertasiyası müdafiə olunmuşdur. Alimin elmi fəaliyyəti əsasən uşaqlarda timus vəzisinin fiziologiya və patologiyasının öyrənilməsinə həsr olunmuşdur. Professor Ş.Hüseynov 120-dən çox elmi məqalənin, dərsliyin, Normal fiziologiyadan təcrübə dərslərinə aid metodik vəsaitin, ixtira və səmərələşdirici təklifin müəllifi, Azərbaycan Tibb Universitetində İxtisaslaşmış Dissertasiya Şurasının və

II Müalicə-profilaktika fakültəsinin Elmi Şurasının fəal üzvü olmuşdur.

Professor Ş.Hüseynovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun!**

**ATU-nun rektorluğu,**
**Normal fiziologiya kafedrasının əməkdaşları**

# Novruzun mənşəyi və tarixi

◆ **Novruz bayramının mənşəyi qədimdir. İslam dini Yaxın Şərq və Orta Asiya ölkələrində yayıldıqdan sonra Ərəb xilafəti bu ölkələrin xalqlarının adət-ənənələrini, bayramlarını təqib etməyə başladı. Əsrlər boyu dini xadimlər, müxtəlif təriqət nümayəndələri bu bayramı təbii və tarixi köklərindən ayırmağa çalışmış, ona dini, mövhumi libas geyindirməyə cəhd göstərmişlər. Hətta bəzi din xadimləri belə bir fərziyyəyə uydurmuşlar ki, Novruz bayramı IV xəlifə Əlinin (ə.) hakimiyyətə (656-661) gəldiyi günlə əlaqədardır. Halbuki imam Əli (ə.) iyul ayında hakimiyyətə gəlmiş, Novruz isə yazda bayram edilir.**



Xalqın bayramla əlaqədar keçirdiyi mərasimlər heç bir dini ehkamlar ilə bağlı deyildir. Əksər xalqlar bahar bayramının əsl mahiyyətindən doğan bir sıra adət-ənənələri, oyunları indiyədək saxlamışlar.

Orta əsr müəllifləri Şərq ölkələrində İslam dini yayıldıqdan sonra da Novruz bayramında yaz ənənələrinin, əkinçilik təqvimi etiqadlarının möhkəm yer tutduğunu göstərirlər. Əbu Reyhan Biruni (XI əsr) Novruz bayramı haqqında müxtəlif rəvayətlərdən onun yaranması səbəblərindən, bu bayram münasibətilə xalq arasında yayılmış adət-ənənələrdən bəhs etmiş, Novruz bayramının təbiətin oyanması, əkinçilik təsərrüfatının başlanması ilə bağlı əsl dünyəvi bayram olduğunu qeyd etmişdir.

Nizamül Mülk (XI əsr) «Siyasətnamə» əsərində Novruz bayramından yazın gəlişi ilə əlaqədar keçirilən kütləvi xalq bayramı kimi bəhs etmişdir. Novruzun gəlişi klassik Şərq, o cümlədən Azərbaycan poeziyasında geniş yayılmış «Bahariyyə» adlı lirik şeirlərdə də təsvir və tərənnüm edilir.

**Novruz bayramında çərşənbələr**

Bəzi qədim inanclara görə kainat 4 ünsürdən - su, od, torpaq və küləkdən yaranıb. Hər il 4 çərşənbə Novruzdan, günün bərabərləşməsindən əvvəl qeyd olunur. Aşıqlarımız da «Ab, ataş, xak, badən yarandım» deyiblər vücudnamələrində, yəni su, od, torpaq və yelə bağlıdır insan.

◆ Birinci *su çərşənbəsi* adlanırdı. Yəni bahara doğru çayların azacıq buz bağlayan yerləri əriyib çaylara tökülür. Torpaq yavaş-yavaş islanmağa başlayır. Qızlar bulaqlardan sərin, şirin su gətirərdilər, evin ətrafına çiləyərdilər, üzlərini yuyardılar.

◆ İkincisi *od çərşənbəsi* adlanır. Ona görə ki, bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır. Od çərşənbəsində tonqallar qalayardılar. Hər ailə üzvünün adına bir dənə şam yandırardılar. Xonçalar düzəldilərdi.

◆ Üçüncüsü ***yel çərşənbəsidir.*** Bəzi bölgələrimizdə çox əziz tutulur. Yəni yel artıq azacıq oyanmış torpağı, təzəcə çığmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yelləir.

◆ Axırıncısı ***torpaq çərşənbəsidir.*** Torpağı ana təbiət - Allahımız su ilə islatdı, günəşlə isitdi, onu yaratmağa hazırladı. Ona görə də ilk yaz əkinini xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar. Nənələrimiz «Səməni, saxla məni, ildə göyərdərəm səni»- deyib buğda isladardılar.

**M.CAVADOV**

## Hikmətli kəlamlar

*Ağıllı ağıl toxuyar, yalanzı yalan.*

*Kobudluq zorakılıq əlamətidir.*

*Elm xalqlar arasında mədəniyyət körpüsüdür.*

*Ağıllı adam başla, ağılsız daşla danışar.*

*Elmi olanın dili də olar.*

*Ağıllı adam əkdiyini yeyər, bədbəxt adam yığdığını məsrəfsiz qoyub gedər.*

*Alimi dolaşdıran aləmi də dolaşdırar.*

*Elmin tacı alimin başında olar.*

*Yoldaşları ilə birgə uçmayan quşun səsi havadan yox, tavadan gələr.*

*Ağıllı olmaq azdır, abırlı da olmaq lazımdır.*

*Alim elmin bağbanıdır, vay o gündən ki, onun barına naşı əli dəyə.*

*Elmdə büdrəmək qəbahət deyil, qorxub çəkinmək qəbahətdir.*

*Alim yazar, nadan pozar.*

**Topladı: Elnur MEHDİYEV**

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin III kurs, 9 «b» qrup tələbəsi Hüseynzadə Nərgiz Eldar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, 165 «b» qrup tələbəsi Kamalov Kamal Şamil oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

1978-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutu tərəfindən Nəcəfov Qubad Məmməd oğlunun adına verilən internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 110 «b» qrup tələbəsi Hüseynova Çinarə Nəriman qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Qafqaz Universitetinin mühəndislik fakültəsinin kompüter mühəndisliyi ixtisası üzrə I kurs tələbəsi Əlizadə Nərgiz Lətif qızının adına verilmiş tələbə bileti (N 110105003-2011-ci il) itdiyi üçün etibarsız saylır.

## QİYMƏTLİ DAŞLAR MÜALİCƏ EDİR

### BERİL

**Beril adlandırılan mineral daşlar kimyəvi tərkibcə alüminium və berillium silikatdır ($Be_2A_{12}Si_6O_{18}$). Onlar heksaqonal sinqoniyada kristallaşır və iynəvarı kristallar əmələ gətirir. Beril müxtəlif rəngdə olur. Yaşıl-göy beril akvamarin, açıq yaşıl beril zümrüd, qızılı-sarı beril helidor, çəhrayı beril vorovyovit (morqanit) adlar. Berilin çox müxtəlif rəngarəngliyi insanı heyrətləndirir. Bu daşın rəngi onun tərkibində olan maqnezium, dəmir, xrom, manqan birdəşmələri qarışığından asılıdır. Qarışığı olmayan beril rəng-siz olur. «Beril» termini ilə adətən, dar mənada bu daşın parlaq yaşılımtıl variantları adlandırılır. Bəzən ulduzaoxşar (bərq vuran) beril və «pişik gözü» effektli beril də təsadüf edilir.**



«Beril» termini çox güman ki, hind mənşəli sözdür. Bu sözü Teofrast öz əsərlərində xatırladır. Bununla bərabər, qeyd etmək lazımdır ki, qədim yunanlar hər hansı bir şəffaf yaşıl mineralı göstərmək üçün «berillos» (beryllos) termini istifadə edirdilər.

Təbiətdə beril mineralı kvars, turmalin, flüorit və s. ilə birlikdə tapılır. O, qranit peqmatitlərində, qreyzenlərdə, skarilarda, metasomatik tipli pnevmatolit-hidrotermal yataqlarda əmələ gəlir. Berilin təmiz, şəffaf növü qiymətli bəzək daşıdır. Bu daşın mədənləri Braziliyada, ABŞ-da, Qrenlandiyada, Zimbabvedə, Hindistianda, Kolumbiyada, Madakaskarda, Mozambikdə, Namibiyada, Rusiyada, Ukraynada, Qazaxıstanda fəaliyyət göstərir.

Hesab edilir ki, beril insana kürəkdə ağrılar olduqda, soyuqdəymə və zökəm zamanı kömək edir. Müxtəlif ginekoloji xəstəliklərdən şəfa tapmaq üçün berillə bəzədilmiş daş-qaş gəzdirmək məsləhət görülür.

Şərq ölkələrində çox qədimdən beril fövqəladə gücə malik olan, orqanizmə həyatverici enerji verən və orqanizmdən neqativ enerjini xaric edən daş hesab edilmişdir. Beril insanlara ruh yüksəkliyinin saxlanmasına kömək edir və onları yorğunluqdan mühafizə edir. Daşların sehrini yaxşı bilən şəxslər berili təfəkkür və dərakkə ilə əlaqələndirirlər. Çox yəqin ki, ona görə də beril məhkəmə zamanı qalib gəlməyə kömək edir. Beril zəkanı kəskinləşdirdiyi üçün, onunla bəzədilmiş qaş-daşın zehni zəif insanlar tərəfindən taxılması məsləhət görülür. Beril insanlarda onurğa boyunca yerləşən aktiv nöqtələrdən ürək mərkəzinə, bu mərkəz isə öz növbəsində ürək-damar sisteminə, döş qəfəsinə, onurğaya və əllərə təsir göstərir. Daşın günəş kələfi mərkəzinə həmin mərkəzin aktivləşməsinin isə dalağa, qara ciyərə və həzm sisteminin digər orqanlarına da təsiri məlumdur; bu, əsasən itnsanın iradəsi ilə əlaqədardır.

**Sahib ƏHMƏDOV,**
*Ümumi gigiyena və ekologiya kafedrasının dosenti*

## Su insanın daha sağlam yaşaması üçün vacibdir

**◆ Tədqiqatlar göstərir ki, gün ərzində içilən suyun miqdarına görə hər iki nəfərdən biri orqanizmini susuz qoyur, yüngül susuzlama yaşayır.**

Orqanizmdə su azlıq təşkil etdikdə qan qatılaşır və bu da orqanlara oksigen və qida maddələrinin az miqdarda daxil olmasına gətirib çıxarır. Alimlər müəyyən etmişlər ki, insan bədəninin 2/3-si sudan ibarət olduğu halda, biz çox az su içirik. Odur ki, hər bir insanın özünü yaxşı hiss etməsi üçün gündə 2,5 litr suya ehtiyacı vardır.

Susuz qalmaq maddələr mübadiləsinin ləng getməsinə səbəb olur. Bədəndə suyun miqdarı azaldıqca orqanizmdəki yağların miqdarı və çəki artır. Lazımi miqdarda su içmək qan təzyiqinin qarşısını alır. Susuz qalmaq yorğunluğun başlıca səbəbidir. Bədəndə suyun azalması diqqətin pozulmasına yol açır. Bir stəkan su gecəyarı baş qaldıran aclıq hissini aradan qaldırır. Gündə 8-10 stəkan su içmək kürək və əzələ ağrılarını azaldır. Su uşaq əmizdirən analarda südü çoxaldır.

Daha çox su içməyin müxtəlif yolları vardır. Məsələn, gecə yatarkən daim yanınızda bir stəkan su qoyun. Oyanan kimi onu içməklə gününüzə başlayın. Su qrafininizə limon, xiyar, alma dilimləri ataraq suyunuzu dadlı edin. İş yerindəki masanızın üzərində mütləq bir şüşə su saxlayın. Evdə televizora baxarkən, paltar ütüləyərkən yanınızda bir stəkan su saxlayın. Həm də daim eyni həcmdə su içmək üçün gündə nə qədər su içdiyinizi ölçün. Mümkünsə, üzərində ölçü olan qrafindən istifadə edin. Daim su içməyi özünüzə xatırladın. Məsələn, hər saatdan bir zəngli saatı qurun, soyuducunun üzərinə su içməyinizi xatırladacaq qeydlər edin. Nəhayət, su içmək üçün susamağı gözləməyin.

Orqanizminizin lazımi miqdarda su ilə təmin olunub-olunmadığını anlamağın ən səmərəli üsulu sidiyə diqqət yetirməkdir. Sidiyin açıq rəngdə olması bədənin suya olan ehtiyacının düzgün ödənildiyinin, tünd rəngdə olması isə orqanizmin kifayət qədər su ilə təmin olunmadığının göstəricisidir.

## Allah rəhmət eləsin!

Əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili, operativ cərrahlıq və topoqrafik anatomiya kafedralarının və ETM-in əməkdaşları ümumi cərrahiyyə kafedrsının professoru

**Bəybala Abasovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Təbib» qəzetinin kollektivi, fəlsəfə, Azərbaycan dili, iqtisadiyyat və hüququn əsasları, Azərbaycan tarixi kafedralarının və Mülkü Müdafiə Tibb xidməti kursunun əməkdaşları fəlsəfə kafedrasının dosenti Məhəmməd Paşayevə həyat yoldaşı

**Kəmalə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şüa diaqnostikası və şüa terapiyası kafedrasının əməkdaşları kafedranın assistenti Nuru Şahməmmədova və ailəsinə əzizləri

**Əfsanə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları kafedranın dosenti N.Əliyevə bacısı

**Zeynəb xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın tədris hissə müdiri Anar müəllimə əmisi qızı

**Mələhət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan tarixi kafedrasının əməkdaşları kafedranın müəllimi Leyla Talışinskayaya atası

**Azər müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının əməkdaşları kafedranın əməkdaşı Gülnarə Tağıyevaya qaynanası

**Yasəmən xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Biofiziki və bioüzvi kimya kafedrasının əməkdaşları kafedranın dosenti Eyvaz İsayevə qardaşı

**İsayev Musa Məhəmməd oğlunun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Cəlal İsayevə qaynanası

**Şərifə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın assistenti, t.e.n. Ziyalı Rzayevə əzizi

**Mirismayıl Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Terapevtik stomatologiya kafedrasının əməkdaşları kafedranın assistenti Ruslan Fərəcova anası

**Nərgiz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in əməkdaşları iş yoldaşları Şahsənəm Həsənovaya

**anasının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat və hüququn əsasları, Azərbaycan tarixi kafedralarının və ETM-in əməkdaşları ümumi gigiyena və ekologiya kafedrasının dosenti Sahib Əhmədova qardaşı

**Nemətağa müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in əməkdaşları MTE-nin və Patoloji Anatomiya Birliyinin baş direktoru, professor Şakir Musayevə qaynatası

**Muğdat Qafarovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın dosenti Elxan Musayevə anası

**Sehran Süleyman qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili, iqtisadiyyat və hüququn əsasları, Azərbaycan tarixi, tibbi və bioloji fizika, fəlsəfə, qidalanma və kommunal gigiyena, travmatologiya və ortopediya, farmakologiya, tibbi biologiya və genetika kafedralarının əməkdaşları fiziologiya kafedrasının professoru

**Şahin Hüseynovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əsaslı kitabxananın kollektivi daxili xidmət şöbəsinin müdiri

**Bibixanım Hüseynovanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Mülkü Müdafiə Tibb xidmətinin Təşkili kursunun əməkdaşları baş müəllim Məzahir Mustafayevə kürəkəni

**Zaurun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qidalanma və kommunal gigiyena, kafedrasının əməkdaşları kafedranın laborantı Qalina Nikolayevnaya həyat yoldaşı

**Rudolf Afanasyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları, 98**
**1-ci mərtəbə,**
**tel.: 595-24-97**

**Lisenziya N - 022633**
**İndeks -0269**
**Sayı 4000**
**Sifariş: 876**